MÜSAVAT
N 151 (8761) 27 avqust 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

**2022-ci il avqustun 26-da Azərbaycan Ordusu Laçın şəhərini, Zabux və Sus kəndlərini nəzarətə götürərək Laçın rayonunun işğalına son qoyub. Prezident İlham Əliyevin 2023-cü il iyulun 31-də imzaladığı Sərəncama əsasən hər il avqustun 26-da Laçın şəhər günü qeyd olunur.**



# "Laçınım mənim..."

## Hər il avqustun 26-da Laçın şəhər günü qeyd olunur

2023-cü il mayın 28-dən başlayaraq Laçın sakinləri öz doğma yurdlarına dönməyə başlayıblar. Laçın şəhəri 571 ailəyə qucaq açıb və 2091 laçınlı öz ev-eşiyinə qayıdıb. Köçürülən ailələrin şəhərdə vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.

Dövlət Proqramına əsasən, ötən il rayonun Sus kəndinə 59 ailə və 217 sakinin, Zabux kəndinə 217 ailə və 845 sakinin, Bəylik kəndinə 89 ailənin və 363 sakinin köçürülməsi təmin olunub. Ümumilikdə Laçın rayonunda 936 ailə, 3 min 516 nəfər sakinin daimi məskunlaşması təmin edilib.

Bu gün laçınlılar şəhər gününü doğma evlərində sonsuz qürur və sevinc hissi ilə bayram edirlər.

Məlumat üçün bildirək ki, böyük strateji əhəmiyyətə malik Laçın rayonu 1930-cu il avqustun 8-də təşkil edilib, mərkəzi Laçın şəhəridir. Keçmiş Abdallar kənd yaşayış məntəqəsinin adı 1923-cü ildə Laçın adlandırılıb və şəhər statusu alıb. Respublikamızın ən böyük rayonlarından biri olaraq yüksək strateji əhəmiyyətə malik Laçın rayonu 1 şəhər, 1 qəsəbə və 125 kənddən ibarət olub. 1992-ci il mayın 18-də Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunaraq rayonun əhalisi etnik təmizləməyə məruz qalıb. İşğal nəticəsində 300-dən artıq hərbi və mülki şəxs həlak olub və itkin düşüb. 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 133 idarə və müəssisə, 5 musiqi məktəbi, 1 internat məktəbi, 1 orta texniki peşə məktəbi, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri işğalçılar tərəfindən talan və məhv edilib. 54 dünya əhəmiyyətli, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə dağıdılıb.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına uyğun olaraq digər işğaldan azad olunan ərazilər kimi, Laçına da böyük köç karvanları həyata keçirilir.

"Bu gün inamla deyə bilərik ki, artıq Laçın özünün yeni dövrünə qədəm qoyub. Hazırda laçınlılar böyük coşqu ilə doğma dədə-baba yurdlarına qayıdırlar. Onların isti ocaqlarında rahat və təhlükəsiz yaşamaları üçün hər cür şərait yaradılıb". Bu fikirləri "Yeni Müsavat"a **Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə** deyib.

Ç.Qənizadə "Böyük Qayıdış" proqramı üzrə görülən işlərdən söhbət açaraq deyib ki, bu layihə çərçivəsində doğma yurd yerlərinə - Laçın şəhərinə və Laçının Zabux və Sus kəndlərinə köçürülən sakinlərin də aktiv məşğulluq proqramları ilə əhatə olunması işləri davam edir: "İndiyədək Laçına 936 ailə, ümumilikdə 3516 nəfər köçürülüb. İlin sonuna qədər Laçın şəhərinə daha 40 ailə köçürüləcək. Hazırda Laçında yenidənqurma, tikinti-quruculuq işləri sürətlə davam etdirilir. Dünya ictimaiyyəti bu işləri heyranlıqla seyr edir. Prezident İlham Əliyev verdiyi bütün vədləri layiqincə yerinə yetirən liderdir. Xalqımız son 22 ildə bunun canlı şahididir. Genişmiqyaslı quruculuq işləri Laçını yenidən canlandırır. Laçında həyata keçirilən genişmiqyaslı quruculuq işləri yüksək zövq və keyfiyyətlə aparılır. Burada bərpa və quruculuq işləri istehsal müəssisələrinin yaradılması ilə paralel şəkildə davam etdirilir. Yaxın illərdə Laçın rayonu beynəlxalq turizm mərkəzinə çevriləcək.

Laçının işğaldan azad edilməsi təkcə coğrafi bütövlüyün bərpası deyil, həm də xalqımızın milli iradəsinin qələbəsi idi. Bu gün Laçın Azərbaycanın ən müasir şəhərlərindən birinə çevrilməkdədir. Baş plan çərçivəsində "15 dəqiqəlik şəhər" konsepsiyası tətbiq olunmaqla həm ekoloji, həm də sosial baxımdan müasir həyat standartları yaradılır. Yeni evlər, məktəblər, xəstəxanalar, turizm və mədəniyyət obyektləri ilə Laçın təkcə yerli sakinlər üçün deyil, həm də beynəlxalq qonaqlar üçün cazibə mərkəzinə çevrilir".

**Milli Məclisin Laçından olan deputatı Rövşən Muradov** bildirib ki, Laçın Azərbaycanın ən gözəl bölgələrindən biridir və hazırda yeni inkişaf mərhələsinə qədəm qoyub: "Laçın hündür və alçaq dağlarla əhatə olunub, zəngin təbiəti var. Rayonumuz bu gün yeni inkişaf dövrünü yaşayır".

**Deputat vurğulayıb ki, Laçında həyata keçirilən ən böyük layihələrdən biri beynəlxalq hava limanıdır:** "Digər işğaldan azad edilmiş ərazilərdə də hava limanları var. Amma Laçındakı fərqlənir. Bu liman 1800 metr hündürlükdə inşa olunub və MDB məkanında ən yüksək dağlıq ərazidə tikilən aeroportdur. Uçuş zolağı, sərnişin qəbul imkanları beynəlxalq standartlara tam uyğundur".

Rövşən Muradov gələcəkdə görülməsini istədiyi işlərdən də danışıb. Onun sözlərinə görə, əsas məqsəd insanların məşğulluğunu təmin edəcək layihələrin həyata keçirilməsidir: "Laçında Qarabağ Universitetinin filialının açılması vacibdir. Gənclər bura üz tutmalı, evlənib məskunlaşmalıdırlar. Bu, rayonun inkişafını sürətləndirəcək. Bitki örtüyü zəngindir, gələcəkdə əczaçılıq fabriki tikilə bilər. Bundan başqa, Laçının su ehtiyatları və müalicəvi suları kurort-sanatoriya istiqamətində inkişaf etdirilməlidir".

Onun sözlərinə görə, hazırda rayonda tikiş fabriki, sənaye parkları, ayaqqabı istehsalı müəssisəsi fəaliyyət göstərir və ümumilikdə 500-600 nəfər üçün iş yeri yaradılıb. Lakin deputat hesab edir ki, bu, kifayət deyil və daha çox sabit iş yerlərinə ehtiyac var.

Qeyd edək ki, "Böyük Qayıdış" prosesi çərçivəsində 2025-ci ilin I yarımilində işğaldan azad edilmiş rayonlarda 1241 yeni iş yeri yaradılıb.

"APA-Economics"in Dövlət Statistika Komitəsinin hesabatı əsasında apardığı hesablamalara görə, bu göstəricinin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 47.7% artıb. Belə ki, 2024-cü ilin I yarımilində işğaldan azad edilmiş rayonlarda 840 yeni iş yerləri yaradılmışdı.

Qeyd edək ki, hesabat dövründə ən çox yeni iş yeri Xankəndi və Laçında yaradılıb. Belə ki, cari ilin ilk 6 ayı ərzində Xankəndidə 385, Laçında isə 244 yeni iş yerləri yaradılıb.

Ümumilikdə isə hesabat dövründə azad edilmiş rayonlarda 104 yeni müəssisə və təşkilat, 1654 yeni fərdi sahibkarlıq subyekti dövlət qeydiyyatından keçib.